2017-ci ilin yanvar-fevral aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına 96652,6 min manat həcmində investisiyadan istifadə edilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,3 faiz çoxdur. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi 0,6 faiz azalaraq 88988,4 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş investisiyanın 92,1 faizini təşkil edir.

2017-ci ilin yanvar ayında muxtar respublikada tikinti sahəsində 8454 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 0,3 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 0,8 faiz artaraq 424,3 manat olmuşdur.